

# BALALARA HƏDİYYƏ

Ələsgər ƏLİOĞLU

## XARIBÜLBÜL

*Xarıbülbülün üstə,*
*Uçub qondu bir bülbül.*
*Uzaqdan seçilmədi,*
*Bülbüllə xarıbülbül...*

## CIDIR DÜZÜNDƏ...

*Gedib çıxmaq istəsən,*
*Dostum,Cıdır düzünə:*
*Sən bir Qarabağ atı,*
*Tapmalısan özünə.*
*İşləri korlayarsan*
*Başqa at tapsan əgər.*
*Onda Cıdır düzündən,*
*Çatmaz sənə bir nəmər...*

## YEDDİMƏRTƏBƏLİ YOLLAR

*Şuşa-Laçın yolları,*
*Keçir neçə dolaydan.*
*Qarşısına çıxır hey,*
*Gah günəş, gah çən-duman...*
*Şuşa-Laçın yolları,*
*Dağların yaxasına,*
*Dolanır yeddi kərə.*
*Yeddiqat da deyirlər,*
*Adına buna görə...*
*Şuşa-Laçın yolları,*
*Gözəllik təməlidir.*
*Bu yollara baxın siz,*
*Yeddimərtəbəlidir...*

## LAÇIN MEŞƏLƏRİNDƏ

*Laçın meşələrində*
*Vardır neçə cür heyvan.*
*Tülkü,çaqqal, canavar,*
*Oxlu kirpi, boz qaban...*
*Heyvanların adını*
*Sayırıq...*
*Gülür Baxış:*
*"Bu yaxınlara kimi,*
*"Saqqallılar" da varmış!..*
*Deyirlər hamısının*
*Başı möhkəm əzilib.*
*Meşələrin qoynundan*
*Daha kökü kəsilib!"*

## ÇÖRƏK MUZEYİ

*Şəhərimiz Ağdamda,*
*Çörək muzeyi vardı.*
*Uşaqlar da həvəslə,*
*Gəlib ona baxardı...*
*Çörəyimizi yeyib,*
*Suyumuzu içənlər,*
*Dağım-dağım dağıtdı,*
*Bu muzeyi bir səhər.*
*Deməyin ki, döyüşdə,*
*Yağılar bizi uddu.*
*Axır onları çörək,*
*Həm "itiqovan" tutdu...*

## ŞUŞA QALASI

*Bu qalanı ucaldan,*
*Pənahəli xan olub.*
*Bu qala yağıların,*
*Qabağını çox alıb...*
*Bu qala ərənlərin,*
*Daşlaşmış sərt sözüdü.*
*Mazğalları tarixin*
*İti görən gözüdü.*

*Bu qalanın hər bürcü,*
*Düşmən gözünə girib.*
*Bu qalanı daşla yox,*
*Zaman qeyrətlə hörüb.*

## İSA BULAĞI

*Qarabağa nemətdir,*
*Bizim İsa bulağı.*
*Yayılıbdı aləmə,*
*Onun səsi-sorağı.*
*İsa adlı bir kişi,*
*Şuşada çox at çapıb...*
*Meşəliyin içində*
*O, bu bulağı tapıb.*
*İçib şərbəttək sudan,*
*Sönüb yanğısı, odu...*
*Elə onun adıyla,*
*Qalıb bulağın adı.*
*Bu gün də susuzlasan,*
*Bulaq çıxar qarşına.*
*Qonaq-qaranı bir-bir,*
*Çəkib yığar başına...*

## ALT BUDAĞL KƏSMİŞDİ...

*Dəhrə götürüb Turqut,*
*Dırmaşmışdı qovağa.*
*Başlamışdı həvəslə,*
*Ağacı daramağa.*

*İşin tən yarısında,*
*Oğlan yaman çaşmışdı.*
*Ölçüb-biçməmişdi heç,*
*Fikri bərk dolaşmışdı...*

*Üst budaqda dayanıb,*
*Kəsmişdi alt budağı.*
*İndi düşə bilmirdi,*
*O, ağacdan aşağı...*

*Çox baxdı ora-bura,*
*Onu fikir götürdi.*
*Duyuq düşdü babası,*
*Nərdivanı gətirdi...*

## TULLANMAQ ÖYRƏDƏN ARX

*Bir arx keçir*
*Turqut gilin*
*Evlərinin*
*Arxasından.*
*Tullanmaqda*
*Birincidir*
*Turqut hər vaxt,*
*Turqut hər an...*
*Axşam-səhər*
*Arxın üstdən*
*Tullanır o.*
*Çöl-çəməni,*
*Gəzir elə,*
*Dolanır o.*
*Tullanmaqda*
*Bir yaşıdı,*
*Bir tay-tuşu*
*Çatmaz ona.*
*Uzunluğa*
*Tullanmağı*
*Arx öyrədib*
*Bu oğlana...*